# PENEPURFOAM 65




Aşağı yapışqanlıqlı birkomponentli hidroaktiv inyeksiyaedici poliuretan qətran. Polimerizasiya reaksiyasının keçməsi üçün suyun olması mütləqdir. “PenePurFoam 65” qətranı “PenePurFoam 65” katalizatoru ilə birlikdə istifadə edilir. O, polimerizasiya üçün tələb edilən vaxtdan asılı olaraq, 2-5% kəmiyyətində tətbiq edilir. Su ilə kontakta girdikdə boş məkanı dolduraraq köpüklənir və qapalı incə hüceyrə quruluşuna malik olan sərt, suya davamlı qatı köpük əmələ gətirir.

Təyinatı:

- ✓ Tikinti konstruksiyaları vasitəsilə təzyiqli su sızmalarının qarşısının alınması;
- ✓ 0,15 mm-dən çox açıqlığı olan rütubətli statik çatların və bənd yerlərinin hermatizasiyası;
- ✓ Tikinti konstruksiyalarında su ilə dolmuş boşluqların hermatizasiyası.

Üstünlükləri:

- ✓ Həcmin əhəmiyyətli dərəcədə artırılması ilə su ilə aktiv reaksiya;
- ✓ Polimerizasiya prosesi üçün tələb olunan zamanın katalizatorun köməkliyi ilə sürətləndirilməsi imkanı;
- ✓ İstismar müddətinin + 5°C-dən +150°C-yə qədər olması.
- ✓ Dəniz suyuna və digər aqressiv mühitlərə qarşı davamlılıq

TEXNİKİ XÜSUSİYYƏTLƏRİ:

| GÖSTƏRİCİNİN ADI | DƏYƏRİ | | SINAQ VASİTƏSİ |
|---|---|---|---|
| | PenePurFom 65 | PenePurFom 65 Katalizator | |
| QƏTRANIN KOMPONENTLƏRİNİN GÖSTƏRİCİLƏRİ | | | |
| Sıxlıq , kq/$m^3$ | 1150±50 | 950±50 | QOST 18329 |
| Şərti özlülük, saniyə, çox olmamaqla | 130 (ucluq 4 mm) | 25 (ucluq 4 mm) | QOST 8420 |

| QƏTRAN QARIŞIMININ VƏ KATALİZATORUN GÖSTƏRİCİLƏRİ | | |
|---|---|---|
| Şərti yapışqanlıq, saniyə, çox olmamaqla | 25 (ucluq 6 mm) | QOST 8420 |
| 1 saat sonra şərti yapışqanlıq, saniyə çox olmamaqla | 30 (ucluq 6 mm) | |
| QƏTRAN QARIŞIMININ VƏ KATALİZATORUN SU İLƏQARŞILIQLI ƏLAQƏSİNİN GÖSTƏRİCİLƏRİ | | |
| Həcmin çoxalması, %-dən az olmamaqla | 6000 | TU 5775-012, 77919831-2015 |
| Bərkimə müddəti, dəqiqə, çox olmamaqla | 4 | |
| ƏLAVƏ XÜSUSİYYƏTLƏR | | |
| Qablaşdırma | Qatran – tutumu 20 kq. Katalizator – tutumu 1 kq. | |
| Saxlama və çatdırılma şərtləri | +5°C-dən +25°C-yə qədər temperaturda saxlamaq olar | |
| Zəmanətli saxlama müddəti | İstehsal edildiyi tarixdən - 24 ay; zavod qablaşdırmasının hermetikliyinin pozulmaması şərti ilə | |

## İSTİFADƏ ÜÇÜN TƏLİMAT

İş konstruksiya səthinin temperaturu +5° ilə +35° C arasında olduqda yerinə yetirilməlidir.

### Zəminin təmizlənməsi

Calaq və çatlaq yeri yüksək təzyiqli su ilə yuyulmalıdır.

### Nasosun hazırlanması

“EK-100 M” əl nasosundan, yaxud “EK-200” elektrik nasosundan istifadə edərək qətranla katalizatoru əvvəlcədən qarışdırmaq lazımdır.

İnyeksiyalamadan əvvəl nasosun hidravlik yağla yoxlanılaraq sirkulyasiya rejimində yuyulması aparılmalıdır. (Məsələn, Mobil HLP -68, yaxud onun analoqu vasitəsilə)

### İnyektorların quraşdırılması

Adətən, QOST 19853 yağsökücülü metal inyektorlardan istifadə edilir. Deliklərin diametri inyektorların diametrindən 1-2 mm çox olmalıdır (məsələn, 10mm diametri olan inyektorda  dəliyin diametri 11-12 mm olmalıdır).

✓ səthdə - 45 dərəcə bucaq altında təzyiqlə doldurulma üçün dəlik açmaq lazımdır. Dəliklər arasındakı məsafə və çat yerin, betonlanan “tikiş” yerinin kənarından olan məsafə konstruksiyanın ½ qalınlığını təşkil etməlidir.

✓ dəliklər sıxılmış hava vasitəsilə qazmanın qalıqlarından təmizlənməli və qıraq (son) inyektor quraşdırılmalıdır.

✓ şaquli və tavan zəminlərdə qətranın axmasının qarşısı alınmalı, bunun üçün çat yerinin ağzında 25x25 mm ensiz kanal hazırlanmalı və o, “Penecrete”, yaxud “Waterplug” harç qarışımı ilə doldurulmalıdır.

## Qətranın hazırlanması

Qətran məhlulunun və katalizatorun hazırlanma temperaturu +17°C olmalıdır, çünki temperaturun aşağı düşməsi zamanı onların özlülük dərəcəsi artır.

✓ Katalizatorun miqdarı bərkimək üçün tələb olunan zamandan və suyun temperaturundan asılı olaraq müəyyən edilir. Katalizator olmadan qətrandan istifadə edilməsi yolverilməzdir. Qətran və katalizator qarışımının su ilə bərkiməsi üçün gərəkli olan zamanı obyektin şəraitinə uyğun dəyərləndirmək tövsiyə edilir.

| KATALİZATORUN KƏMİYYƏTİ | TEMPERATURDAN ASILI OLARAQ SU İLƏ REAKSİYAYA GİRMƏK MÜDDƏTİ | | |
|---|---|---|---|
| | +5° | +15° | +25° |
| 2% | 10 dəqiqə | 9 dəqiqə | 6 dəqiqə |
| 5% | 5 dəqiqə | 4 dəqiqə | 3 dəqiqə |

✓ 1 saat ərzində istifadə edib bitirmək mümkün olan miqdarda qətran məhlulu hazırlamaq üçün: qətranı katalizatorla birlikdə 3 dəqiqə ərzində əl ilə, yaxud aşağı sürətli drellə (dəqiqədə 300 dövriyyə) qarışdırmaq lazımdır.

## İNYEKSİYA İŞLƏRİNİN HƏYATA KEÇİRİLMƏSİ

Şaquli çatların qətran məhlulu ilə inyeksiyalanmasını aşağıdan yuxarıya doğru müntəzəm təzyiqlə doldurma ilə həyata keçirmək lazımdır.

✓ İnyeksiyalamanı təzyiqin yüksəlməsi baş verənə, yaxud qətran və katalizatorun köpüklənmiş qarışımı digər dəlikdən axana qədər aparmaq lazımdır.

✓ Növbəti inyektoru quraşdırmaq və inyeksiyalama prosesini davam etdirmək tövsiyə edilir.

- ✓ Qətran və katalizator qarışımının yapışqanlığının artması zamanı nasosun həlledici vasitəsilə (məsələn, 646 QOST 18188 həlledicisi) yumaq lazımdır.
- ✓ Əsas inyeksiyalamadan sonra polimerizasiya baş verməmişdən əvvəl artıq qətranla doldurulmuş inyektorlarla əlavə olaraq inyeksiyalama aparılmalıdır.
- ✓ İnyektorların çıxarılması zərurəti yarandıqda dəliklərin ağzı “Penecrete” harç qarışımı ilə doldurulmalıdır.

## NASOSUN TƏMİZLƏNMƏSİ

Nasos və xortumları əvvəlcə həlledici ilə (məsələn, kisilol, yaxud 646 QOST 18188 həlledicisi ilə) yüksək təzyiq altında yumaq, sonra hidravlik yağla (məsələn, Mobil HLP-68, yaxud onun analoqu) təmizləmək lazımdır. Bərkimiş qətranı mexaniki yollarla təmizləmək tələb olunur.

## TƏHLÜKƏSİZLİK QAYDALARI

Rezin əlcəklərdən, pambıq əlcəklərdən, qoruyucu eynəklərdən, qalın parçadan tikilmiş xüsusi iş geyimlərindən, çəkmələrdən istifadə edilməsi tövsiyə olunur. Qarışım dəriyə və ya gözlərə düşdüyü təqdirdə dərhal su ilə yuyulmalı və həkimə müraciət edilməlidir.